**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

***№3 Humanitar elmlər seriyası 2013***

**UOT 94 «19/…»**

# XX ƏSRİN 40-cı İLLƏRİNİN SONU – 50-ci İLLƏRİNİN ƏVVƏLLƏRİNDƏ ABŞ-ın İRANDA FƏALİYYƏTİNİN GENİŞLƏNMƏSİ

**N.A.RZAYEV**
***Bakı Dövlət Universiteti***
***rz.nasimi@yahoo.com.***

*Yaxın və Orta Şərq tarixən böyük dövlətlərin maraqlarının ən çox toqquşduğu regionlardan biridir. İkinci dünya müharibəsindən sonra iki ideologiya arasında başlanan mübarizə bu ərazidən də yan keçməyib. Həmin regionda yerləşdiyi ərazinin strateji əhəmiyyəti baxımından İranın rolu olduqca böyükdür. Buna görə də, istər Qərb dövlətləri, istərsə də Sovet İttifaqı İranı öz təsirləri altına salmaq uğrunda ciddi mübarizəyə girişmişdilər. Məqalədə bəhs edilən dövr bu mübarizənin gərginliyinin artdığı dövr hesab olunur.*

**Açar sözlər:** milliləşdirmə, İngiltərə-İran neft şirkəti, Abadan, Rza şah, Rəzmara

İkinci dünya müharibəsindən sonra kapitalizm-sosializm ziddiyyətləri son dərəcə kəskinləşmişdi. Bu ziddiyyətlərin bir qütbündə kommunizmi dünyada hegemon ideologiyaya çevirməyi qarşısına məqsəd qoymuş Sovet İttifaqı, digər qütbündə hər vəchlə sovet ekspansiyasının qarşısını almağa qərarlı olan ABŞ və müttəfiqi Böyük Britaniya dayanırdı. Coğrafi mövqe və təbii resurslar baxımından böyük əhəmiyyətə malik olan Yaxın və Orta Şərq regionu SSRİ-yə nisbətən daha çox Qərb dövlətlərinin təsir dairəsində idi. Bu regionda əhəmiyyətlilik baxımından İran xüsusi çəkiyə malikdir. Amerika rəsmilərinin fikrincə, belə bir əhəmiyyətə malik olan ölkənin SSRİ-nin təsir dairəsinə keçməsinə yol vermək olmazdı. ABŞ Dövlət Katibinin müavini Sidney Suersin 21 iyul 1949-cu ildə tam məxfi şəkildə Milli Təhlükəsizlik Şurasına göndərilən geniş hesabatında ABŞ-ın İrana diqqətinin artırılmasının vacibliyi vurğulanırdı. ABŞ tərəfi hesab edirdi ki, İranın özünü müdafiə qabiliyyəti olduqca aşağıdır və həmişə SSRİ-nin ekspansiya siyasətinin hədəfindədir. Hesabatda qeyd olunurdu ki, "İran Sovet hökumətinin dominantlığına keçsə, bütün Orta Şərq ölkələrinin müstəqilliyi təhlükə altına düşəcək. Xüsusən, SSRİ geniş bir ərazini əhatə edən Türkiyə, İraq, Ərəbistan yarımadası, Əfqanıstan və Pakistanda dağıdıcı fəallığını genişləndirəcək" [12, 1]. Əgər SSRİ İrana yiyələnsəydi bu zaman Amerika və İngiltərənin Orta Şərqdəki müdafiə mövqelərinə daha yaxın

olardı və daha çox təhlükə yaradardı. Üstəlik kontinental hava nəqliyyat xətti İran üzərindən keçirdi və belə olan təqdirdə İran körfəzi ilə əlaqələrin kəsilməsi labüd idi. Amerika üçün Şərqi Aralıq və Orta Şərq regionunun təhlükəsizliyinin həyati əhəmiyyəti var idi. İrana nəzarətin Sovetlərin əlinə keçməsi bu regionda ABŞ-ın fəaliyyətini tamamilə sarsıda bilərdi. Bunun üçün ABŞ tam gücü ilə İrana iqtisadi, siyasi hətta hərbi yardım göstərməyə hazır idi. Birinci planda olan məsələ siyasi fəaliyyəti İranın SSRİ təsirinə düşməsinə mane olmaq və Tehranı Qərbə yönəltmək istiqamətində kökləmək idi. İkinci planda, İran və digər region ölkələrinə ABŞ-ın onların tərəfində olduğunu göstərmək və həmin ölkələrlə əlaqəni genişləndirmək nəzərdə tutulurdu. İran hökumətinin iqtisadi cəhətdən zəifliyini aradan qaldırmaq, demokratik təsisatların və demokratiya ənənələrinin genişləndirilməsinə nail olmaqla iranlıların özlərini Qərb dünyasına yaxın hiss etmələrinə şərait yaratmaq əsas tədbirlər hesab olunurdu. ABŞ-ın Milli təhlükəsizlik şurasına göndərilən hesabatlarda İranın müstəqilliyinin qorunması məsələsi təkrar-təkrar vurğulanırdı. Hesabatlarda qeyd olunurdu ki, ABŞ hökuməti İrana iqtisadi və maliyyə yardımlarını əsirgəməməli, ordunun lazımi avadanlıqlarla təchiz olunmasına ciddi səy göstərməlidir. Onların fikrincə, bu yolla İranı öz gücünə inandırmaq olardı ki, Sovet İttifaqına qarşı dura bilsin. İran ictimaiyyəti arasında demokratik fikirlərin və demokratik cəmiyyətin inkişafına nail olmaq vacib şərtlərdən biri hesab olunurdu. Beləcə İran ictimaiyyətinin beyninə yeritmək istəyirdilər ki, onlar Sovetlərdən çox qərblilərə daha yaxındırlar. ABŞ-ın İrandakı səfiri Con Kuper Ualey 1950 ci il yanvar ayının 24-də Məhəmməd Rza şahla görüşündən sonra danışıqların təfərrüatlarını ABŞ dövlət katibinə yazılı şəkildə bildirmişdi. Həmin hesabatda göstərilirdi: "Şah Çindəki prosseslərdən və Çinin SSRİ-nin təsiri altına düşməsindən məyus olaraq narahatlıq içindədir. Əfqanıstanın da, SSRİ ilə yaxınlaşması şahın narahatlığını artırır" [6, 446, 447].

1946-cı ildə Sovet qoşunlarının İrandan çıxarılmasından sonra Şimali İrandakı yerli kommunist maşını sarsılmışdı və hərəkatın liderlərinin çoxu artıq Sovet İttifaqında məskunlaşmışdılar. Bu şəxslərin hərəkatı bərpa etməsi imkansız görünürdü. Əgər gözlənilənlərin əksinə bu hal baş versəydi onda Qərb dövlətləri başda ABŞ olmaqla kommunist təsirinin Orta Şərqə doğru yayılmasının qarşısını almaq strategiyasına əl ata bilərdilər. Nəzərdə tutulurdu ki, SSRİ-nin İrana müdaxiləsi hiss olunsaydı ABŞ tərəfi buraya hərbi ləvazimatlar və hərbi sursatlar şəklində çoxlu yardım göndərməli idi. Əgər ABŞ rəsmilərinin düşündüyü kimi İran hökumətini devirib yerinə sovetlərə xidmət edəcək biri gətirilsəydi, o zaman bu işdə ordu əli-qolu bağlı qalacaqdı. Lakin təkcə təbliğat yolu ilə bunun baş verməsi bir qədər imkansız görünürdü. Əsas kommunist təbliğat maşını Tudə partiyası hesab olunurdu ki, o da İran hökuməti tərəfindən qanundankənar elan olunduğundan məhdud fəaliyyətə malik idi. Həmçinin, o zaman üçün Tudə partiyasının gücü hazırkı rejimlə mübarizə aparmağa kifayət etməzdi. Şahın öldürülməsi belə, lazımi effekti verməyəcəkdi. Bu çevrilişin silah gücünə deyil təbliğat yolu ilə daxildən

yüksək çinli şəxslər tərəfindən təşkil edilməsi mümkün ola bilərdi. SSRİ-nin dəstəyi ilə hakimiyyətə yiyələnmək istəyən şəxslərin peyda olması istisna olunmurdu. ABŞ məhz bu məqamdan daha çox ehtiyyat edirdi. Buna görə də, ABŞ tərəfi şah rejimini Sovet İttifaqının maraqlarından çıxış edən liderlərə qarşı diqqətli olmağa çağırmış və bu barədə ciddi xəbərdarlıq etmişdi. Vəziyyətin əvvəlcədən hiss olunması ABŞ-a imkan verəcəkdi ki, Sovet tərəfdarı olan hökumətin işini tamamlamasına imkan verməsin. Şah rejimi yıxılsaydı və Sovet əlaltısı olan hökumət qurulsaydı belə, köhnə hökumətin qanunvericiliyi imkan verməyəcəkdi ki, kommunistlər qısa vaxt ərzində əsas mövqeləri tamamilə tutsunlar. Bu zaman ABŞ-ın əks hücum üçün kifayət qədər vaxtı olacaqdı. Ehtimal olunan hadisələrin geniş ərazidə fəaliyyət göstərməsinə qarşı yaradılacaq maneələr onun imkanlarını məhdudlaşdırardı və ABŞ qüvvələrinin cənubda–neft ərazilərində möhkəmlənməsinə vaxt qazandırardı. ABŞ hökuməti İran ərazisində Britaniya ilə birgə hərəkət etməyi daha səmərəli hesab edirdi. Təbii ki, İngiltərənin maraqlarında ABŞ-la uzlaşan məqamlar da az deyildi. Ən başlıcası hər iki Qərb dövlətinin vahid düşmənə qarşı (SSRİ-yə qarşı) birgə fəaliyyəti zərurət idi. ABŞ-ı narahat edən bir məsələ də İranın SSRİ hərbi qüvvələri tərəfindən birbaşa hücumla tutulması təhlükəsi idi. Bu fərziyyə SSRİ üçün arzuolunmaz bir addım idi. İrana hərbi qüvvələr yeridilməsi və buranın güc yolu ilə tutulması yeni dünya müharibəsinə rəvac verəcək ilk addım olardı. SSRİ belə bir addımı ilk atan tərəf olmaq istəməzdi. ABŞ-ın İranı davamlı müdafiə etməsi İran hökumətində heç bir şübhə doğurmurdu. Çünki ABŞ bunu Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 51-ci maddəsinin tələbləri adı altında həyata keçirirdi [5, 459]. SSRİ-nin İrana silahlı müdaxilə ehtimalı az olsa da, ABŞ hökuməti bu məqama heç də səthi yanaşmırdı. Belə bir hal baş versəydi, ABŞ SSRİ ilə toqquşmalı olacaqdı. ABŞ tərəfi bilirdi ki, İrana ordu göndərilməsi məsələsi BMT-nin Təhlükəsizlik Şurası qarşısında qaldırılsa SSRİ buna veto qoyacaq. Sovet qoşunlarının 1921-ci il müqaviləsini əsas tutaraq Şimali İrana daxil olma ehtimalı da mümkün hesab olunurdu. Lakin ABŞ hökuməti sovet qüvvələrinin bu istiqamətdən İrana girməsinin çevriliş etmək üçün ən çətin yol olduğunu yaxşı başa düşürdü. Sovetlərin İranın şimal əyalətlərini az qan tökməklə sürətli şəkildə tutmaları bir qədər imkansız görünürdü. Sözsüz ki, BMT-nin Təhlükəsizlik Şurası da bu məsələyə biganə qalmayacaqdı. İranın şimal torpaqlarının işğalı burada hökumətin devrilməsi üçün başlanğıc ola bilərdi. Buna görə də, ABŞ hökuməti belə vəziyyətin baş verməsinin qarşısını almaq üçün xüsusi fəaliyyət planı hazırlamışdı. Bütün bu sadalanan məqamlar göstərir ki, ABŞ hökuməti İran məsələsinə son dərəcə həssaslıqla yanaşırdı. Sonrakı proseslərin gedişatı sübut etdi ki, SSRİ İran məsələsində ABŞ hökuməti qədər canfəşanlıq etmirdi. ABŞ rəsmilərinin gizli hesabatlarında göstərilən bütün hallarda İrana girmək sovetlər üçün o qədər də asan başa gəlməyəcəkdi. Güman ki, SSRİ rəhbərliyi bütün bu amilləri ən azı ABŞ hökuməti qədər bilirdi. ABŞ hökuməti İranın "Soyuq müharibə"də bitərəf qalmasını istəmirdi. 1950-ci il sentyabr ayının 8-də İran məsələsi ilə bağlı

ABŞ-ın Təhlükəsizlik Şurasına göndərilən hesabatda göstərilirdi ki, Sovetlər İran əhalisi arasında apardığı təbliğat sayəsində ictimaiyyətdə özünə qarşı rəğbət yarada bilib. İran xalqını əmin edib ki, onların SSRİ-dən qorxmasına heç bir əsas yoxdur. Bununla bağlı hesabatda deyilirdi: “Unutmamalıyıq ki, yerli kommunistlər və Tudə partiyası da İranın qapılarını Sovetlərin üzünə açmağa hazırdır” [1, 9].

1949-cu ilin fevralında Bolqarıstanın “İzqrev” qəzeti xəbər verirdi ki, Amerikanın Tehrandakı səfirliyi Kolxor kürd qəbiləsinin rəisi olan məclis deputatı Kabadyanla xüsusi adamlar vasitəsilə sıx əlaqə saxlayırdı. ABŞ nümayəndələrinin tapşırığı üzrə bu deputat Saqqız və Sənəndəc vilayətlərinə gedərək buradakı qəbilələrin rəisləri ilə görüşmüş və “Muxtar Kürdüstan dövləti” yaradılması məsələsini onlarla müzakirə etmişdi [8].

İctimaiyyət arasında ABŞ-ın İrandakı canfəşanlığına münasibət birmənalı deyildi. Məsələn, İranın “Paetəxte ma” qəzeti dərc etdiyi məqalədə ABŞ-ın xarici siyasətini kəskin tənqid edirdi. Qəzet yazırdı: “Biz hamımız bilirik və Trumenin özü də belə bir faktı inkar edə bilməz ki, ABŞ-da milyonlarla zənci qul kimi yaşayır. Əgər ABŞ-ın hökumət başçıları həqiqətən demokratiyanı yaymaq istəyirlərsə bu işə öz ölkələrindən başlasınlar. Xalqlara yardım bəhanəsilə onlar Rusiya ilə qonşu olan ölkələri silah və döyüş sursatı ilə doldururlar” [10]. ABŞ rəsmiləri İngiltərə ilə əməkdaşlıq zəminində fəaliyyətə üstünlük versələr də əslində İngiltərənin İranda nüfuzunun genişlənməsindən narahat idilər. İngilislərin nüfuzunun artmasında Dövlət katibi Din Açesonun və Uaylinin zəifliyinin əsas rol oynadığını vurğulayırdılar. Bu narazılıqlar çox keçmədən Uaylinin səfir vəzifəsindən götürülməsi ilə nəticələndi. Onun yerinə Yunanıstan və Filippində fəaliyyət göstərmiş Henri Qreydi təyin edildi. “Rahib-əl-əhval” qəzeti “Birləşmiş Ştatlar Amerika silahı almaq üçün İrana yeni borc verir” sərlövhəli məqalədə yazırdı: “Birləşmiş Ştatlar yaxın zamanda İrana 25 milyon dollar miqdarında yeni borc verəcəkdir” [11]. Bu məsələdən bir müddət öncə Nyu Yorkda çıxan “Krisçen Sayens” qəzetinin Tehran müxbirinin verdiyi məlumatda ABŞ-ın İran ordusunda təlimləri intensivləşdirdiyi qeyd olunurdu. Məlumata görə, İranın demək olar ki, bütün hərbi birləşmələrinə təlim məqsədilə çoxlu sayda Amerika hərbçiləri ezam olunmuşdu. Xüsusən Amerika hava qüvvələri mütəxəssislərindən ibarət olan bir dəstə İran əsgər və zabitlərini ABŞ-ın R-47 və S-47 tipli təyyarələri idarə etməyə öyrədirdilər. Zirehli tank işi üzrə Amerika mütəxəssisləri dəstəsinin rəhbərliyi altında kapitan Tempelin başçılığı ilə İran ordusunda tank məktəbi yaradılmışdı [9]. İranın hərbi naziri Yəzdan Pənah 1950-ci il may ayının 25-də İran məclisinin iclasında Cənubi Koreya, Filippin və İrana hərbi yardım məqsədilə ABŞ tərəfindən ayrılmış 27.640 min dollar hesabına İrana Amerika silahlarının verilməsinə dair İran-Amerika sazişinin imzalandığını bildirdi. İranın Vaşinqtondakı müvəqqəti işlər vəkili öz bəyanatında ABŞ-dan silah alınmasını İranın iqtisadi planlarını həyata keçirməklə əlaqələndirmişdi. ABŞ-ın yüksək rütbəli diplomatları “Marşal planı” üzrə yardımın İrana da şamil edilməsinin tərəfdarı

idilər. Dövlət departamentinin Yaxın və Orta Şərq məsələləri üzrə İdarəsinin rəhbəri Mak Gi ilə İranın ABŞ-dakı səfiri Hüseyn Əla arasında aparılan danışıqlarda da səfir ABŞ-ın İrana hərbi və iqtisadi yardımının İran üçün böyük əhəmiyyətə malik olduğunu bildirmişdi [3, 449, 450, 451].

1950-ci ilin martında Amerika ordusunun qərərgah rəisi general Kollinslə İran ordusu qərərgahının keçmiş rəisi Əli Rəzmara arasında bağlanmış sazişə uyğun olaraq qısa müddət ərzində İrana yenə amerikan silahlarının gətirilməsi planlaşdırılırdı. "Baxtəre emruz" qəzetinin yazdığına görə Amerikanın İrandakı səfirliyini qorumaq üçün ABŞ hökuməti İrana 100 nəfər Amerika dəniz piyadası göndərmək niyyətində idi [7]. Belə gərgin bir şəraitdə SSRİ-nın İrandakı səfirliyində diplomatik aparatın gücləndirilməsinə hazırlıq işləri görülürdü. SSRİ-nin Tehrandakı səfiri İvan Vasileviç Sadçikovun rəhbərlikdən yeni təlimatlar aldığı güman olunurdu. İran məsələləri üzrə mütəxəssis hesab olunan "briliant" ləqəbli Danil Simonoviç Komissarovun səfirliyin tərkibinə salınması ABŞ tərəfinin nəzərindən yayınmamışdı.

Artıq ingilislərin də İranda fəaliyyətlərində çətinliklər nəzərə çarpırdı. Neft sazişinə əlavənin məclisdən keçməməsi bunu açıq şəkildə göstərirdi. Tehranın siyasi dairlərinin fikrinə görə Londonda İngiltərə və ABŞ arasında İranla bağlı saziş imzalanmışdı. İran rəsmiləri bu sazişin nədən bəhs etdiyini böyük səylə öyrənməyə çalışırdılar. İngiltirə ilə ABŞ arasındakı danışıqların bu dövlətlərin arasında olan ziddiyyətlərinin aradan qaldırılması üçün aparıldığı güman olunurdu. 1950-ci il sentyabrın 18-də Londonda təşkil olunmuş görüşdə Britaniyanın Xarici İşlər İdarəsinin Şərq departamentinin rəhbəri Gofrey Uorren Furlong İranla bağlı iki məsələnin müzakirəsini təklif etdi. Birincisi – İranın müttəfiqlər üçün əhəmiyyəti və onun itirilməsinin nəticələri, ikincisi – İrana təhlükə törədəcək amillərin müəyyən olunması, birbaşa sovet müdaxiləsi, Cənubi Azərbaycanda kommunist rejiminin yaradılması və buradan İranın bütün ərazilərinə nüfuz etməsi və s. hallar İranı hədələyən təhlükəli məqamlar hesab olunurdu. Müttəfiqlərin fikrincə şah və yerli hökumət bu təhlükələrin qarşısını almağa qadir deyildi. Əgər ABŞ və müttəfiqlərinin köməyi olsaydı bu təhlükələri dəf etmək olardı. İranın əldən çıxması ilə müttəfiqlərin böyük enerji mənbələrindən birini itirməsi qaçılmaz idi. Konfransda ortaya çıxacaq gözlənilməz vəziyyət üçün dörd bənddən ibarət tədbirlər planı ciddi müzakirə olundu. Müzakirələr zamanı üzərində dayanılan əsas tədbirlər bunlar idi: A) Göstərilən bütün mümkün hallarda təhlükənin qarşısını almaq üçün əks tədbirlər görülməli idi; B) Birləşmiş qoşunlar yerli hökumətin razılığı ilə İraq ərazisində yerləşdirilməli; C) Birləşmiş qoşunlar İraq hökumətinin razılığı ilə onun ərazisində yerləşdirilməklə Cənubi İranın neft sahələrini qorumaq üçün buraya yeridilməli; D) ABŞ və İngiltərə Sovet ittifaqı ilə müharibəyə başlamalı idi. Müttəfiqlər istəyirdilər ki, SSRİ-nin nəzərinə çatdırsınlar ki, əgər o İrana silahlı müdaxilə etsə ABŞ, İngiltərə, Yunanıstan, Türkiyə və İran ona qarşı müharibə elan edəcəkdilər. Qeyd edilən planın "C" variantı bir qədər mübahisəyə səbəb oldu. Bu addımın İran şahı və yerli hökumət tərəfindən İran torpa-

ğını zəbt etmək kimi başa düşülməsi ehtimalı var idi. Buna görə də, qoşunların sadəcə İraq ərazisinə gətirilməsi daha əverişli təklif kimi dəyərləndirildi və bəyənildi [2, 592, 593]. Sentyabrın 21-də konfrans davam etdirildi. Konfransı Britaniya nümayəndələri açaraq Yaxın şərqdəki məqsədlərindən və bu məqsədlərin hər iki ölkə üçün əsasən eyni olduğunu vurğuladılar. Onların fikrincə bu məsələdə hər iki ölkə əlindən gələni əsirgəməməli idi. İnanırdılar ki, ABŞ nümayəndələri 3 məsələdə xüsusən onlarla razıdırlar: 1) Yaxın Şərq ölkələrinin hər hansı birinin müttəfiqlərin əleyhinə olan tərəfdə yer almasına yol verməmək; 2) Yaxın Şərq ölkələrinin müttəfiq ölkələrin hər hansı birinin neft şirkətlərinin əleyhinə fəaliyyət göstərməsinə imkan verməmək; 3) Hər iki ölkənin neft şirkətləri ABŞ və İngiltərə hökumətlərinin yeritdiyi siyasətdən kənara çıxmamalıdır. ABŞ rəsmiləri bu fikirlərlə razılaşaraq əlavə etdilər ki, hər iki ölkənin neft şirkətləri hər iki dövlətin hər hansı birinin maraqlarından kənar fəaliyyət göstərərdilərsə öz hökumətləri tərəfindən bunun qarşısı alınmalı idi. Mak Gi İran üçün ABŞ-ın xüsusi proqramı olduğunu açıqladı. Bildirdi ki, İrana maliyyə yardımının olunması, İngiltərə-İran neft şirkətinin (İİNŞ) neft sazişinə əlavənin qəbul etdirilməsi bu proqramın vacib tərkib hissəsidir [4, 599, 600]. Sentyabrın 23-də konfrans yenidən davam etdirildi. Danışıqların bu mərhələsində əsas yer İran, Türkiyə və Yunanıstan məsələsinə verilmişdi. İngiltərə nə qədər ABŞ-la əməkdaşlığa meyilli görünsə də İran məsələsində xüsusi həssaslıq nümayiş etdirirdi. Bunun digər bir səbəbi də İngiltərə üçün böyük əhəmiyyəti olan "Neft sazişinə əlavə"nin ABŞ-ın gizli maneçiliyi üzündən məclisdən keçməməsi idi. Digər tərəfdən İngiltərə və ABŞ arasında əvvəlcədən əldə olunan razılığa görə, İngiltərənin məclisdən keçməsini istədiyi sazişə əlavə təsdiq olunmayınca ABŞ İrana maliyyə yardımı etməyəcəkdi. ABŞ tərəfinin maliyyə yardımına hazırlığı İngiltərə neft şirkətini və ona yaxın dairələri hiddətləndirmişdi. Bu razılaşmada ingilislər də "yeddillik plan"ın həyata keçirilməsinə mane olmayacaqlarını öhdələrinə almışdılar. İngiltərənin İranda mövqeyinin getdikcə zəifləməsi amerikalıları qane edirdi. Həqiqətən də İngiltərənin İranda vəziyyəti olduqca ağır idi. Bu məsələdə kömək üçün ABŞ-a üz tutan İngiltərə sözsüz ki, bu dövlətin bəzi şərtləri ilə üzləşməli idi.

Bütün bu faktlar deməyə əsas verir ki, İran soyuq müharibə dövründə Qərb dövlətləri üçün ən zəif halqa hesab olunurdu. Buna görə də, böyük dövlətlər arasında bu ölkədə möhkəmlənmək uğrunda ziddiyyətlər zaman-zaman öz kəskinliyi ilə fərqlənmişdir. Ən əsası Qərb dövlətləri müharibə zamanı SSRİ-yə qarşı olan mülayim münasibətlərini tamamilə dəyişmişdilər və Avropada buraxdıqları "səhvləri" Yaxın və Orta Şərqdə təkrarlamaq niyyətində deyildilər.

## ƏDƏBİYYAT


1. Draft for NSC staff consideration only. September 8, 1950. Copy №3.
2. Foreign relations of USA (FRUS)Memorandum of conversation, by the first secretary embassy in the United Kingdom (Palmer). London, September 18, 1950, v. V.

3. FRUS. Memorandum of Conversation by the Officer in Charge of İranian Affairs (Ferguson), Washington, January 26, 1950, v. V.
4. FRUS. Record of informal US-UK discussions, London, September 21, 1950, v. V, p. 599-600.
5. FRUS. The ambassador in İran (Wiley) to the Secretary of State (Foreign relations of USA) Washington, 24 january, 1950, v. V.
6. FRUS.The ambassador in İran (Wiley) to the Secretary of State (Foreign relations of USA) Washington, January 24, 1950, v. V.
7. “Kommunist” qəz., 1950, 2 avqust.
8. “Kommunist” qəz., 1949, 28 fevral.
9. “Krisçen Sayens” qəz., 1950, 16 may.
10. “Paetaxte ma” qəz., 1950, 9 fevral.
11. “Rahib-əl-əhval” qəz., 1950, 17 may.
12. RG 273, Records of the National Security Council, Policy Papers, July 21, 1949.

## РАСШИРЕНИЕ ДЕЙСТВИЙ СОЕДИНЕННЫХ ШТАТОВ АМЕРИКИ В ИРАНЕ В КОНЦЕ 40-х И В ПЕРВЫЕ ГОДЫ 50-х ГОДОВ

**Н.А.РЗАЕВ**

### РЕЗЮМЕ

Ближний и Средний Восток является одним из областей, с которыми сталкиваются исторически значимые государства. После Второй мировой войны начавшая борьба между двумя идеологиями не прошло стороной из этой территории. В таком же регионе, с точки зрения стратегической важности области, роль Ирана очень велика. Поэтому Западные державы вошли в борьбу серьезно за понижение под Ираном влияний Советского Союза. В статье упоминается период повышенной напряженности этой борьбы.

**Ключевые слова:** национализация, англо-иранская нефтяная компания, Абадан, шах Реза, Размара

## EXPANSION OF THE ACTIVITIES OF THE USA IN IRAN LATE IN 40s – EARLY IN 50s OF THE XX CENTURY

**N.A.RZAYEV**

### SUMMARY

The Middle East is one of the areas which joins historically significant states. After World War II the fight between two ideologies didn't pass by from this territory. From the point of view of strategic importance of the region the role of Iran is very great in the region. Therefore, the Western powers were seriously involved in the fight to decrease the influences of the Soviet Union. The article marks the period of the increased intensity of this fight.

**Key words:** Nationalization, English-Iranian Oil Company, Abadan, Shah Reza, Razmara